

# Çinin dünya iqtisadiyyatındakı rolu və hədəfləri

**Çin qlobal siyasət və iqtisadiyyatın mərkəzlərindən biridir. ABŞ ilə iqtisadi və strateji rəqabətdə ölkənin qüdrəti, texnoloji nailiyyətləri və siyasi müstəvidə tutduğu balanslı mövqe mühüm rol oynayır. Rəsmi Pekin siyasi və iqtisadi maraqlarını müdafiə etməklə kifayətlənmir, eyni zamanda beynəlxalq münaqişələrdə vasitəçi kimi də fəal iştirak edir. Çinin beynəlxalq müstəvidəki gücünü şərtləndirən bir sıra amillər mövcuddur. Tərəfdaş ölkələrin daxili işlərinə qarışmamaq prinsipi rəsmi Pekinin siyasi nüfuzunu artırır və ölkələrlə münasibəti möhkəmləndirir. Eyni zamanda Çin hərbi gücdən istifadə etməmək siyasətini əsas olaraq qəbul edir ki, bu da ölkənin beynəlxalq hüquq və sülhə olan hörmətini göstərir. Tərəfdaşlara hörmətlə yanaşmaq və iqtisadi əlaqələri inkişaf etdirmək Çin diplomatiyasının əsas təməlini təşkil edir. Yumşaq güc siyasətinə sadiq qalan rəsmi Pekin iqtisadi inkişafla yanaşı, beynəlxalq təsir sahəsini genişləndirir. Ölkə elm və texnologiya sahəsindəki nailiyyətləri ilə də dünya miqyasında üstünlük əldə edir. Texnoloji innovasiyalar və elmi tədqiqatlarda əldə olunan irəliləyişlər Çin iqtisadiyyatını daha da gücləndirir, ölkənin qlobal bazarda rəqabət qabiliyyətini artırır və inkişaf modelini daha da cəlbedici edir.**

Azərbaycan Cənubi Qafqazda Çin üçün etibarlı və strateji tərəfdaşdır. Bu münasibətlər həm 44 günlük Vətən müharibəsindən əvvəl, həm də sonra davamlı olaraq inkişaf edib. Bu dövr ərzində Azərbaycan və Çin arasında çoxsaylı əməkdaşlıq layihələri həyata keçirilib və bir sıra mühüm sənədlər imzalanıb. 2015-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Prezidenti Si Cinpin arasında Pekində imzalanan "Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının dostluq münasibətlərinin və əməkdaşlığının daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında Birgə Bəyannamə" əməkdaşlığın əsasını qoyan mühüm sənəddir. Ötən il isə Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısında Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə imzalanmışdır. Sənəd Çinin Cənubi Qafqazdakı rolunun daha da möhkəmlənməsinə və regional güc balansında mühüm dəyişikliklərə şərait yaradır. Azərbaycan və Çin arasında əməkdaşlıq yalnız ikitərəfli iqtisadi əlaqələrlə məhdudlaşmır, həm də regional və beynəlxalq səviyyədə daha geniş strateji tərəfdaşlıq perspektivlərini gündəmə gətirir. Əsas məqam hər iki ölkənin maraqlarını qorumaq, eləcə də regional, qlobal səviyyədə sülh, sabitlik və inkişafı təşviq etmək niyyətinin ifadəsidir. Bəyannamədə qeyd olunan bəndlər tərəflərin beynəlxalq məsələlərdə birgə fəaliyyət göstərməsinə dair aydın və konkret prinsipləri əks etdirir. Azərbaycan və Çin bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət göstərilməsi üzrə qarşılıqlı razılıq əldə ediblər. Bu yanaşma daxili işlərə qarışmamaq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında inkişaf edən münasibətlərin təməlidir. Tərəflər qarşılıqlı etimad və hörmət çərçivəsində bərabərlik və dinc birgəyaşayışı dəstəkləyirlər. Azərbaycan "Vahid Çin" prinsipinə tam dəstək verir, tək dövlət olaraq mövcudluğunu tanıyır və Tayvanın Çin ərazisinin ayrılmaz hissəsi olduğunu qəbul edir. Bu mövqe həm də regional sabitlik və beynəlxalq hüququn qorunması baxımından əhəmiyyətlidir.

İki ölkə arasında nəqliyyat əlaqələrinin inkişafı da ön planda yer alır. "Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının dostluq münasibətlərinin və əməkdaşlığının daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında Birgə Bəyannamə" Çinin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin tikintisində və istismarında fəal iştirakını vurğulayır. Çin bu layihə çərçivəsində Azərbaycan, həmçinin digər marşrut boyu yerləşən ölkələrlə sıx əməkdaşlıq etməyə və regional əməkdaşlığı dərinləşdirməyə hazır olduğunu bildirir. Bu, həmçinin istehsal, təchizat zəncirlərinin təhlükəsizliyinin və sabitliyinin təmin edilməsi məsələsində birgə fəaliyyətin vacibliyini göstərir. Çinin Azərbaycana və digər tərəfdaş ölkələrlə birgə regional əməkdaşlığa yönəlmiş fəaliyyəti Asiya və Avropa arasında strateji əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir. Bu əməkdaşlıq xüsusilə ticarət marşrutlarının və nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə, qlobal iqtisadiyyatın daha da inteqrasiya olunmasına imkan verir. Bütün bunlar etimad və əməkdaşlıq səviyyəsinin yeni mərhələyə keçəcəyini göstərir. Tərəflər siyasi, mədəni və regional əməkdaşlığı gücləndirməyə yönəlik ortaq səylərlə beynəlxalq müstəvidə daha təsirli bir oyunçu olduqlarını nümayiş etdirirlər. Çin Zəngəzur dəhlizi layihəsini dəstəkləyir, bu layihəyə olan marağı iqtisadi və regional geosiyasi faktorlarla bağlıdır. Azərbaycanın Cənubi Qafqazda strateji mövqe tutması xüsusilə Zəngəzur dəhlizinin regionda nəqliyyat və ticarət əlaqələrini asanlaşdırması potensialı Çin üçün mühüm iqtisadi və logistika faydaları vəd edir.

Prezident İlham Əliyevin Çinin Sinxua agentliyinə müsahibəsi iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı haqqında aydın təsəvvür yaradır. Ölkə başçısı bildirmişdi ki, ötən il Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 20,7 faiz artmış və 3,744 milyard dollar həcmində olmuşdur. Bu artım Çinin Azərbaycan üçün nə qədər önəmli bir ticarət tərəfdaşı olduğunu göstərir. Rəsmi Bakı Pekini özünün dördüncü ən böyük ticarət tərəfdaşı adlandırır. Təsadüfi deyil ki, Çin Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində 7,9 faizlik paya sahibdir. Xüsusilə Çinin idxal bazarındakı liderliyi - 17,69 faizlik payı Azərbaycan iqtisadiyyatında təsirinin artdığını göstərir. İkitərəfli əməkdaşlıq yalnız ticarət sahəsi ilə məhdudlaşmır. Prezident İlham Əliyev müsahibəsində Azərbaycan ilə Çin arasında mədəni əlaqələrin inkişafını da vurğulamışdır. Çin dilinin və mədəniyyətinin Azərbaycan ali təhsil müəssisələrində tədrisi bu sahədə əlaqələrin daha da möhkəmləndiyini göstərir. Eyni zamanda Çində Azərbaycan dilinin öyrənilməsi iki ölkə arasındakı mədəni mübadiləni intensivləşdirir. Azərbaycan dilinin öyrənilməsini təşviq edən mərkəzlərin fəaliyyətə başlaması əlaqələrin dərinləşməsi üçün əlverişli platforma yaradır. Bundan başqa, Heydər Əliyev Fondu tərəfindən Nizami Gəncəvinin büstünün Şanxay Əməkdaşlıq Təşkilatının katibliyinə hədiyyə edilməsi Azərbaycanın mədəniyyəti və tarixinin beynəlxalq aləmdə tanıdılması istiqamətində mühüm addımdır. Böyük Azərbaycan şairinin büstünün bu cür prestijli bir təşkilatın binasında nümayiş olunması mədəniyyətimizin beynəlxalq səviyyədə tanınmasına, xalqlar arasında qarşılıqlı anlayışın inkişafına mühüm təsir göstərir.

Çin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəkləyərək Cənubi Qafqaz bölgəsində etibarlı bir tərəfdaşlıq münasibəti qurmuşdur. Bu mövqe xüsusilə Azərbaycanın Ermənistan tərəfindən işğal edilən torpaqlarının geri qaytarılması üçün mübarizə apardığı dövrdə bariz şəkildə özünü göstərmişdir. Rəsmi Pekin ölkəmizin beynəlxalq hüququn və ədalətin təmin edilməsi istiqamətindəki addımlarını təqdir edərək regionda siyasi tərəfdaşlığını gücləndirmişdir. Çinin Cənubi Qafqazdakı fəaliyyəti yalnız Azərbaycanla məhdudlaşmır, rəsmi Pekin, həmçinin Gürcüstanla da əlaqələrini inkişaf etdirir. Bu Çin üçün regionda iqtisadi-ticarət sahəsindəki əməkdaşlığı genişləndirməyə və müxtəlif tərəfdaşlarla əlaqələrini dərinləşdirməyə imkan yaradır, bu təşəbbüslər onun geosiyasi və iqtisadi mövqeyini daha da möhkəmləndirir. "Bir kəmər, bir yol" layihəsi regionda infrastrukturun və ticarət əlaqələrinin inkişafına şərait yaradıb. Bu təşəbbüs Çini bölgənin ən mühüm iqtisadi oyunçusuna çevirərək həm yerli, həm də qlobal ticarət şəbəkələrinə daxil olmasına imkan verir.

Çin Yaxın və Orta Şərqdə də fəallığını artırır. Bu bölgədəki geosiyasi vəziyyətin mürəkkəbliyi və regional güc mübarizələri fonunda Çin öz diplomatik təsirini daha da genişləndirərək regionda sabitliyi təşviq edir. Çinin vasitəçiliyi ilə Yaxın Şərqdə iki böyük regional güc İran və Səudiyyə Ərəbistanı arasında münasibətlər normallaşmışdır. Münasibətlərin bərpası Çinin Yaxın Şərqdəki gücünü artıran mühüm addımdır. Pekin bu vasitəçilik missiyasını həyata keçirərkən Yaxın Şərqin güc balansının yalnız yerli ölkələr tərəfindən müəyyən edilməsi və regionun taleyinin onların əlində olması prinsipinə sadiqliyini bildirib.

Son illərdə Çin Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) ilə siyasi və iqtisadi əlaqələrini ciddi şəkildə gücləndirib. Bu inkişaf regionda ticarət əlaqələrinin artmasına, həm də qlobal iqtisadi dinamikalarda daha təsirli rol oynamasına səbəb olub. 2022-ci ildə Çin ilə Körfəz Əməkdaşlıq Şurasının üzv ölkələri (Bəhreyn, Küveyt, Oman, Qətər, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri) arasında ümumi ticarət həcmi 315,8 milyard dollar təşkil edib. Bu rəqəm Çinin Yaxın Şərqdəki ən böyük ticarət tərəfdaşlarından biri olmasını və əlaqələrin əhəmiyyətini göstərir. Körfəz Əməkdaşlıq Şurası ölkələri dünya iqtisadiyyatında mühüm yer tutur və hazırda dünyanın doqquzuncu ən böyük iqtisadiyyatını təşkil edir. Bu iqtisadi güc Çinin ABŞ-dan sonra ikinci ən böyük ölkə olduğunu, iki region arasında əməkdaşlığın qlobal mənzərəsini aydınlaşdırır. Çin və Körfəz Əməkdaşlıq Şurası arasında əlaqələrin inkişafı, çoxşaxəli tərəfdaşlıq modelinə doğru irəliləyir. İki tərəf arasında həyata keçirilən strateji layihələr və birgə təşəbbüslər əməkdaşlığın siyasi və təhlükəsizlik məsələləri üzrə genişlənməsini təmin edir.

2023-cü ilin iyununda Ər-Riyadda keçirilən 10-cu Ərəb-Çin Biznes Konfransında Çin Xalq Respublikasının 2030-cu ilə qədər Körfəz ölkələrinin suveren fondlarından 1-2 trilyon dollar vəsait ala biləcəyi qeyd edilib. Bu rəqəm Çinin enerji sahəsindəki mövqeyinin gücləndirilməsi və investisiya axınlarının artırılması baxımından çox önəmlidir. Körfəz ölkələri xüsusilə Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Qətər dünyanın ən böyük neft istehsalçıları və əsas enerji ixracatçılarıdır. Bu, Çinin enerji təhlükəsizliyinin təmin edilməsi və enerji resursları baxımından strateji mövqeyinin gücləndirilməsi üçün də böyük bir fürsət yaradır. Körfəz ölkələri uzun müddətdir ki, ABŞ ilə strateji və ticarət tərəfdaşlığına malikdirlər. Vaşinqton regionda siyasi və hərbi müttəfiq kimi əhəmiyyətli bir rol oynasa da, Çinin regionda artan təsiri, ticarət əlaqələrinin intensivləşməsi və regional layihələrə qatılması daha çox əməkdaşlıq və müxtəlif sahələrdə əlaqələrin inkişafı üçün yeni imkanlar yaradır. Körfəz regionu ilə Çin arasındakı əlaqələrin güclənməsi, yalnız iqtisadiyyat və enerji resursları ilə məhdudlaşmır, geosiyasi baxımdan da böyük əhəmiyyət kəsb edir. Çin regionda nüfuz qazandıqca, həm regional sabitliyə, həm də dünya iqtisadiyyatının inkişafına təsir edir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**